# 2016-cı ilin dövlət büdcəsinə dəyişikliklər edilir

Fevralın 19-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında" qanunda dəyişikliklər edilməsi barədə layihə müzakirə edildi. Komitənin sədri Ziyad Səmədzadə bildirdi ki, Azərbaycan iqtisadi sahədə xeyli uğurlar əldə edib. Bu, dövlət səviyyəsində görülən işlərin nəticəsidir. Onun sözlərinə görə, son bir ildə dünya üzrə neft qiymətinin 4 dəfə aşağı düşməsi Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib. Bununla belə, hökumət müxtəlif tədbirlər görür ki, ölkəmiz mövcud iqtisadi çətinlikdən maksimum az itki ilə çıxsın. Belə tədbirlərdən biri də Prezident İlham Əliyev tərəfindən Milli Məclisə göndərilən "2016-cı ilin dövlət büdcəsi haqqında" qanuna dəyişikliklər edilməsi barədə sənəddir.

Qanun layihəsini maliyyə naziri Samir Şərifov təqdim etdi. O qeyd etdi ki, sözügedən düzəlişlər dünyada baş verən iqtisadi proseslərlə bağlıdır. Dünya iqtisadiyyatındakı təlatümlü vəziyyət enerji daşıyıcıları bazarında təklifin tələbi üstələməsi və iri dövlətlər tərəfindən neftə olan tələbatın xeyli azalması ilə əlaqədardır. Bu isə inkişafda olan neft ölkələri üçün mənfi faktorlar yaradır. Bu səbəbdən, Azərbaycan iqtisadiyyatı üçün də yeni çağırışlar ortaya çıxıb. Şübhəsiz ki, mövcud reallıqlar ölkəmizə valyuta daxil olmasının kəskin azalması və tədiyyə balansının aşağı düşməsinə gətirib çıxarır. Bütün bu amillər dövlət büdcəsinə müəyyən düzəlişlər edilməsi zərurətini yaradıb.

Yenidən baxılacaq 2016-cı il icmal büdcə üzrə əsas dəyişikliklər barədə danışan nazir bildirib ki, 2016-cı il icmal büdcənin gəlirləri 15738,6 milyon manat nəzərdə tutulur ki, bu da təsdiq edilmiş büdcəyə nisbətən 981,5 milyon manat və ya 5,9 faiz azdır. Azalma əsasən, dəqiqləşdirilmiş icmal büdcəni neft gəlirlərinin hesablanması üçün bir barrel xam neftin qiymətinin təsdiq edilmiş proqnozla müqayisədə 2 dəfə aşağı götürülməsi nəticəsində Dövlət Neft Fondunun gəlirlərinin 3230,3 milyon manat azalması hesabınadır. Samir Şərifov 2016-cı il üçün dəqiqləşdirilmiş dövlət büdcəsinin gəlirlərinin strukturu və əsas mənbələri barədə də danışdı. Vurğuladı ki, 2016-cı il üçün dəqiqləşdirilmiş dövlət və icmal büdcələrin hesablanmaları zamanı xam neftin satış qiymətinin bir barreli üçün 25 ABŞ dolları götürülməsi müvafiq olaraq dövlət büdcəsinin gəlirlərində neft sektorundan daxilolmaların azalması ilə nəticələnib. 2016-cı il üçün dövlət büdcəsinin dəqiqləşdirilmiş gəlirləri 16822 milyon manat proqnozlaşdırılır ki, bu da 2016-cı ilin təsdiq olunmuş proqnozla müqayisədə 2256 milyon manat və ya 15,5 faiz çox, 2015-ci ilin icrası ilə müqayisədə isə 334,8 milyon manat və ya 2 faiz azdır. Dövlət büdcəsinin daxilolmalarının tərkibində qeyri-neft sektoru üzrə büdcə gəlirləri isə 7597 milyon manat və ya 45,2 faiz nəzərdə tutulur. Bu, 2015-ci ilin icra göstəricisi ilə müqayisədə 659,2 milyon manat və ya 4,8 faiz - bənd çoxdur.

Qeyd edildi ki, 2016-cı ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7010 milyon manat daxilolma nəzərdə tutulur. Bu da 2016-cı il üzrə təsdiq olunmuş proqnozdan 408 milyon manat və ya 6,2 faiz çox, 2015-ci ilin operativ icra göstəricisi ilə müqayisədə isə 108,3 milyon manat və ya 1,5 faiz azdır.

İclasda çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov diqqətə çatdırdı ki, müəyyən sosial tədbirlərin maliyyə təminatı üçün dəqiqləşdirilmiş dövlət büdcəsinin xərclərində əlavə olaraq 1290 milyon manat vəsait nəzərdə tutulub. Bununla dövlət büdcəsində sosialyönümlü xərclərin xüsusi çəkisi 1,7 faiz - bənd artaraq 37,8 faiz təşkil edəcək. Onun sözlərinə görə, Dövlət Gömrük Komitəsinin xətti ilə təmin edilən dəqiqləşdirilmiş daxilolmaların proqnozu isə 1810 milyon manat təşkil edir ki, bu da təsdiq edilmiş proqnozla müqayisədə 220 milyon manat çoxdur. Digər gəlirlər üzrə daxilolmalar isə 75 milyon manat proqnozlaşdırılır. Bu göstərici 2016-cı ilin təsdiq edilmiş proznozuna nisbətən 13 milyon manat və ya 21 faiz çoxdur. Artıma səbəb ötən illərdə xarici valyuta verilmiş kreditlər üzrə daxilolmaların manatın yeni məzənnəsi ilə hesablanmasıdır.

Sonra büdcə layihəsinin müzakirəsinə başlanıldı. Bildirildi ki, 2016-cı ilin dövlət büdcəsinə təklif olunan dəyişikliklər mövcud qlobal iqtisadi gərginlikdən maksimum az zərərlə çıxmaq üçün çox əhəmiyyətlidir. Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edildi.

***Elgün MƏNSİMOV,***
***"Azərbaycan"***